# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# “EPİDEMİOLOGİYA”

fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

hazırlıq istiqaməti: **“TİBB ELMLƏRİ”**

proqramın istiqaməti: **3202.01 “EPİDEMİOLOGİYA”**

**B A K I – 2022**

**Epidemiologiya fənni üzrə fəlsəfə doktoru imtahanının proqramı əməkdar elm xadimi, tibb elmləri doktoru, professor İ.Ə.Ağayevin ümumi elmi rəhbərliyi ilə aşağıdakı müəlliflər tərəfindən hazırlanmışdır**

Azərbaycan Tibb Universitetinin
“Epidemiologiya” kafedrasının müdiri,
ə.e.x., tibb elmləri doktoru, professor **Ağayev İbadulla Əliağa oğlu**

Azərbaycan Tibb Universitetinin
“Epidemiologiya” kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Vahabov Elman Fərman oğlu**

Azərbaycan Tibb Universitetinin
“Epidemiologiya” kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Xələfli Xatirə Novruz qızı**

Azərbaycan Tibb Universitetinin
“Epidemiologiya” kafedrasının
dosenti, tibb üzrə fəlsəfə doktoru **Tağıyeva Flora Şura qızı**

Azərbaycan Tibb Universitetinin
“Epidemiologiya” kafedrasının
assistenti **Cəlilov Vaqif Çingiz oğlu**

# MƏZMUNU

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1. Epidemiologiya fənninə giriş

Fəsil 2. Ümumi epidemiologiya

Fəsil 3. Xüsusi epidemiologiya

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.** Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

# ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

Epidemiologiya fənni “Epidemiologiya” ixtisası, 3202.01 – “Epidemiologiya” istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid fundamental fəndir.

“Epidemiologiya” fənninin öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır. Proqramın əsasını aşağıdakı fəsillərin əsas müddəaları təşkil edir: “Epidemiologiyaya giriş”, “Ümumi pidemiologiya”, “Xüsusi epidemiologiya”.

“Epidemiologiya” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“Epidemiologiya” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

“Epidemiologiya” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“Epidemiologiya” fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

# I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3202.01 - "Epidemiologiya" ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin epidemioloji tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Fənnin məzmunu.** Epidemiologiya - təbabətin sürətlə inkişaf edən sahələrindən biridir. Dəyişən sosial-iqtisadi şərait və ağırlaşan ekoloji vəziyyət bir çox yoluxucu xəstəliklərin epidemik prosesin təkamülünü şərtləndirmişdir. Son onillikdə aşkar edilmiş bir çox yeni xəstəliklər ağır gedişi və yüksək letallıqla xarakterizə olunur, onların etibarlı diaqnostika və profilaktika üsulları yoxdur. Ölkə ərazisinin sanitar mühafizəsi məsələləri də olduqca mühüm məsələyə çnvrilmişdir.

Hazırda XXI əsr ÜST tərəfindən infeksiyalarla mübarizə və onların bəzilərinin ləğv edilməsi ili elan edilmişdir. Yoluxucu xəstəliklərlə müarizədə əldə olunan uğurlar və əhalinin sağlamlıq göstəricilərinin yaxşılmaması çox vaxt sanitar-epidemioloji və müalicə müəssisələrinin işçilərinin aktivliyindən asılıdr. Bunun üçün epidemiologiyanı dərindən bilmək lazımdır. Epidemioloji müayinə əhalinin xəstələnməsinin səbəbləri və ya risk amilləri haqqında fərziyyələri formalaşdırmağa və sübut etməyə imkan verir. İstər yoluxucu, istərsə də qeyri-yoluxucu xəstəliklərin epidemiologiyasının öyrənilməsi onlarla mübarizə və profilaktikanın elmi cəhətdən aparılmasına, risk qrupunda əksepidemik və immunprofilaktika tədbirlərinin həyata keçirilməsinə və ümumiyyətlə əhalinin sağlamlığının qorunmasına zəmin yaradır. Tərtib edilmiş bu proqramda epidemiologiyanın elmi əsasları haqqında ilkin biliklər verilməklə, müxtəlif xəstəliklərdə epidemik prosesin qanunauyğunluqlarının öyrənilməsi yolu ilə xəstəliklərin mübarizə və profilaktikası üsulları açıqlanmışdır.

**Tədqiqatın obyekti** – müxtəlif xəstələnmələrin öyrənilməsi üçün seçilmiş

əhali qrupları.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 3202.01 - "Epidemiologiya" istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Fənnin məqsədi:** epidemiologiya ilə bağlı olan əsas konsepsiyaları və metodları tədqiq edərək əhalinin sağlamlığının qorunması, yoluxmasının qarşısının alınması, xəstəliklərin baş verməsinin səbəb-nəticə əlaqələrinin öyrənilməsi yolu ilə mühüm qərarların verilməsi və qəbul edilməsi, lazımi təhükəsizlik tədbirlərinin həyata keçirilməsi, əhalinin sağlamlıq göstəricilərinin təhlili sayəsində risk qruplarının və risk amillərinin təyin edilməsi, epidemioloji vəziyyətin pisləşməsinin qarşısının alınması, onların sağlamlığının qorunması üzrə səhiyyə xidmətlərinin fəaliyyətinin effektiv planlaşdırılması yollarını tədris etməkdir. Bu zaman öyrəniləcək mövzulara aiddir: epidemik proses haqqında təlim, epidemiologiyanın metodları, epidemik prosesin inkişaf mexanizmi, yoluxucu xəstəliklərin yaranmasının və yayılmasının qarşısının alınması üzrə aparılan profilaktik və əksepidemik tədbirlər, ayrı-ayrı yoluxucu xəstəliklərin epidemioloji xüsusiyyətləri və onlarla konkret mübarizə tədbirləri, xəstəxanadaxili və qeyri-infeksion xəstəliklərin epidemiologiyası, karantin xəstəlikləri və onların ölkə ərazisinə gətirilməsindən qorunması üzrə aparılan tədbirlər.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda

sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– epidemiologiya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– epidemiologiya sahəsində nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda epidemiologiya elminin nəzəri əsaslarından istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

– epidemiologiyanın təyinini, inkişaf tarixini, məqsəd və vəzifələrini, strategiya və istiqamətlərini;
– epidemioloji tədqiqatların aparılmasında istifadə edilən müayinə metodlarını və təhlilin növlərini;
– sağlamlığın dəyərləndirilməsi və sağlıq göstəriciləri, kriteriyaları haqqında informasiyanı;
– yoluxucu xəstəliklərin epidemiologiyasını;
– qeyri-yoluxucu xəstəliklərin epidemiologiyasını;
- ekoloji və peşə epidemiologiyası haqqında bilikləri;

- yoluxucu xəstəliklərin populyasiya səviyyəsində yayılmasnın spesifikliyini və onun təbabətdə əksini, insanların patologiyasını müəyyənləşdirən genotipik, fenotipik və mühit amillərinin (sosial və təbii) təsirini;
- əhali arasında infeksion (parazitar) xəstəliklərin baş verməsi və yayılmasının ümumi qanunauyğunluqlarını, ayrı-ayrı infeksion xəstəliklərdə epidemik prosesin səbəb və şərtlərini, infkişaf mexanizmini və təzahürünü;
- epidemioloji müayinə metodlarını, epidemioloji diaqnostika sistemini;
- profilaktik və əksepidemik tədbirlərin sistem və məzmununu, infeksion (parazitar) xəstəliklərin profilaktikası məqsədi ilə işlədilən preparatlar, texniki vasitələr və onların işlədilməsinin, eləcə də profilaktik və əksepidemik tədbirlərin effektivliyinin və keyfiyyətinin qiymətləndirilməsinin metodik əsaslarını;
- əksepidemik sistemin təşkilatı quruluşunu, məsul şəxslərin fəaliyyətinin funksional istiqamətlərinin, əksepidemik sistemin informativ təminatının və idarə edilməsinin, əksepidemik işin təşkili və planlaşdırılmasının, eləcə də əksepidemik işin keyfiyyət və effektivliyinin metodik əsaslarını;
- infeksion (parazitar) xəstəliklərin müxtəlif nozoloji formaları və qrupları üzərində epidemioloji nəzarətin metodik və təşkilati əsaslarını.
- Qeyri-infeksion xəstəliklərin müxtəlif nozoloji formaları və qrupları üzərində epidemioloji nəzarətin metodik və təşkilati əsaslarını.

**bacarıqlar:**

– epidemik prosesin təzahürlərini təhlil etməyi və onların mövcud olmasını təyin edən şəraiti aşkar etməyi;
– yoluxucu xəstəliklərin mübarizə və profilaktikasının əsas istiqamətlərinin müəyyən edilməsi zamanı epidemik proses haqqında təlimin müddəalarından istifadə etməyi;
– konkret yoluxucu xəstəliklərlə mübarizə və profilaktika tədbirlərinin təkmilləşdirilməsi məqsədilə onların determinantları üzərində dinamik izləmənin nəticələrindən istifadə etməyi;
– əksepidemik tədbirlərin aparılması zamanı yoluxucu xəstəliklərin təsnifatı üzrə biliklərdən istifadə etməyi;

– işlədiyi ərazi üzrə əhalinin xəstələnməsinin retrospektiv epidemioloji analizini, eləcə də infeksion (parazitar) xəstəlik ocaqlarının operativ epidemioloji analizini və epidemioloji müayinəsini;
– epidemik prosesin proqnozlaşdırılmasını və epidemik vəziyyətin qiymətləndirilməsi əsasında əksepidemik işin problem- tematik, sahə- funksional və məqsəd proqramlarının, eləcə də epidemik ocaqların ləğv edilməsi planlarının hazırlanmasını;
- infeksion (parazitar) xəstəliklərin müxtəlif nozoloji forma və qrupları üzrə epidemioloji nəzarəti həyata keçirməyi, lazımi əksepidemik tədbirləri seçməyi, onların həyata keçirilməsinə metodik rəhbərliyi və nəzarəti;
- Qeyri-infeksion xəstəliklərin müxtəlif nozoloji formaları və qrupları üzərində epidemioloji nəzarətin metodik və təşkilati əsaslarını.
- müxtəlif əksepidemik tədbirlərin və onların kompleksinin praktiki və potensial effektivliyinin, eləcə də əksepidemik işin keyfiyyət və effektivliyinin qiymətləndirilməsini.

***Doktorant nəyə yiyələnməlidir*:**

– yoluxucu xəstəlik ocağının epidemioloji müayinəsini aparmağı, onun sərhədlərini, epidemioloji müşahidəyə, izolyasiyaya, məhdudlaşdırıcı tədbirlərə, laborator və klinik müayinələrə məruz qalan şəxsləri təyin etməyi;

– laborator müayinə üçün nümunələri götürməyi (yoluxucu xəstələrdən və ətraf mühit obyektlərindən materialın götürülməsi metodlarına yiyələnməyi);

– infeksiya mənbəyi, törədicinin yoluxma amilləri haqqında qərar qəbul etməyi;

– müxtəlif nozoformalar zamanı hospitalizasiya müddətini və rejim-məhdudlaşdırıcı tədbirlərin davametmə müddətini, xəstəliyi keçirənlər və yoluxma riskinə məruz qalan şəxslər üzərində dispanser müşahidənin aparılması qaydasını, onların laborator müayinəsinin aparılması qaydasını və müayinənin nəticələrinin interpretasiyası, dekretə olunmuş peşələrdən olan şəxslərin işə buraxılması qaydasını təyin etməyi;

– müxtəlif infeksiyalar zamanı obyektlərin cari və yekun dezinfeksiyasının, deratizasiyasının və dezinseksiyasının aparılmasının təşkili qaydasını;

– müxtəlif infeksiyalar üzrə epidemioloji vəziyyətin qiymətləndirilməsi üçün epidemioloji təhlili aparmağı;

– müxtəlif qeyri-infeksion xəstəliklər üzrə epidemioloji vəziyyətin qiymətləndirilməsi üçün epidemioloji təhlili aparmağı;

– profilaktik və əksepidemik tədbirlərin adekvat sistemini təyin etməyi;

– idarəçilik qərarlarını qəbul etməyi və epidemioloji nəzarəti təşkil etməyi, aparılan tədbirlərin ardıcıllığını və onların reallaşması müddətini planlaşdırmağı.

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil epidemioloji tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

-tədqiqat işinin müxtəlif metodları;

-statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

Proqram müasir dövrdə epidemiologiya haqqında bilikləri tədris edir və müxtəlif xəstəliklərlə mübarizədə müalicə-profilaktika müəssisələrinin fəaliyyətini, sanitar- epidemioloji xidmətin funksiyalarını təqdim edir.

Epidemiologiya epidemik prosesin inkişaf qanunauyğunluqlarını öyrənən elmdir; bu elm insanlar arasında yoluxucu xəstəliklərin yayılma prosesini - infeksiya mənbəyi, yoluxma mexanizmi və həssas orqanizm, sosial şəraitdən asılı olaraq yeni yoluxmanın əmələ gəlməsini öyrənir. Epidemiologiya tibb elminin insan cəmiyyətində yoluxucu xəstəliklərin baş verməsi və yayılmasının tədqiqi ilə məşğul olan və alınmış məlumatlara əsasən bu xəstəliklərin qarşısının alınması, mübarizə və profilaktika tədbirlərini hazırlayan sərbəst elm sahəsidir.

Epidemiologiyanın təbabət elmində, xüsusilə, yoluxucu xəstəliklər və peşə xəstəlikləri sahəsində əhəmiyyəti böyükdür. Epidemiologiya sahəsində elmi yeniliklər təbabət elmini xeyli zənginləşdirmişdir, təcrübi səhiyyədə yoluxucu xəstəliklərə qarşı mühüm tədbirlərin təklif edilməsi isə bu xəstəliklərin qarşısının alınması sayəsində minlərlə insan həyatının qorunması ilə nəticələnmişdir. Epidemiologiya elminin mütərəqqi üsulları müasir təbabətdə somatik xəstəliklərlə mübarizədə də geniş istifadə edilir. Bu xəstəliklər sırasında bədxassəli şişlər və ürək-qan damar sistemi, maddələr mübadiləsinin pozulması zamanı meydana çıxan (şəkərli diabet) xəstəlikləridir və onlarlarla mübarizədə epidemiologiya elmi böyük rol oynayır.

Yoluxucu xəstəliklərin ləğv edilməsi tibb elminin mürəkkəb problemlərindəndir. Yoluxucu xəstəliklərin epidemiologiyası müxtəlif yoluxucu xəstəliklərin etiologiyası, yoluxma mexanizmi, epidemik prosesin təzahürlərinin xüsusiyyətləri haqqında təsəvvür yaradır, epidemioloji nəzarətin müasir istiqamətlərini, əksepidemik tədbirləri və müxtəlif infeksiyalarda spesifik immunprofilaktika məsələlərini nəzərdən keçirir. Yoluxucu xəstəliklərin ləğvi - müəyyən yoluxucu xəstəliyin ölkə və ya bir sıra ölkələrin hüdudlarında, yaxud bütün yer kürəsində həmin xəstəliyin törədicisinin tam məhv edilməsi və ya yox olması ilə müşayiət olunan ləğvini nəzərdə tutur.

Hazırda profilaktikanın sərhədlərinin infeksion patologiyanın sərhədlərindən kənara çıxması nəticəsində nəinki təkcə infeksion, həm də qeyri-infeksion xəstəliklərin öyrənilməsində populyasion yanaşmanın tətbiqi nəticəsində Qeyri-infeksion xəstəliklərin epidemiologiyası (QİXE) meydana gəlmişdir. QİXE somatik, qeyri-infeksion mənşəli kütləvi yayılan xəstəlikləri epidemioloji müayinə metodu vasitəsilə öyrənir. Hazırda bu istiqamət sürətlə inkişaf etməkdədir və yoluxucu xəstəliklərin epidemiologiyası ilə yanaşı, qeyri-infeksion xəstəliklərin epidemiologiyası geniş tədris olunur.

Xalqın sağlamlığı uğrunda mübarizədə aparılan tədbirlərdən biri də tibbi - profilaktiki istiqamətin aktiv şəkildə inkişaf etdirilməsidir. O, fundamental və populyasion epidemioloji tədqiqatlarda alınan məlumatlara əsaslanır. Bu, epidemioloji müayinə metodunun köməyilə həyata keçirilir. Onun vasitəsilə profilaktik və əksepidemik tədbirlərin aydınlaşdırılması və xəstəliyin əmələ gəlməsi mexanizmi müəyyən edilir. İstər yoluxucu, istərsə də, qeyri-yoluxucu xəstəliklərin təhlili zamanı geniş tətbiq edilir.

Müasir dövrdə epidemiologiya həm ictimai səhiyyə, həm də kliniki təbabət üçün vacib elm sahəsinə çevrilmişdir. Eyni zamanda epidemiologiya profilaktik təbabətin və sosial-hüquqi baxımdan ictimai qayda-qanunların inkişaf etdirilməsində də çox böyük rola malikdir. Hal-hazırda epidemiologiya laborator tədqiqatlarla birlikdə ətraf mühit və genetik risk faktorlarının müəyyən edilməsində və bunlardan asılı olan müxtəlif xəstəliklərin patogenezinin aydınlaşdırılmasında da çox böyük işlər görür. Son zamanlar bütün dünyada əhali arasında xroniki qeyri-infeksion xəstəliklərin intensivliyinin artması, onların müalicəsinin dövlətlərə çox böyük xərc hesabına başa gəlməsi nəzərə alınaraq onların da qarşısının alınması üçün epidemioloji tədqiqat və araşdırmalardan istifadə olunur. Keçən əsrin 90-cı illərindən qeyri-infeksion xəstəliklərin epidemiologiyası ayrıca fənn kimi ayrılmış və öyrənilməkdədir. Keçən əsrin ortalarından etibarən infeksion xəstəliklərə qarşı dərman vasitələrinin, özəlliklə də antibiotiklərin kəşf olunması, eyni zamanda vaksinlərdən istifadə olunması nəticəsində müxtəlif epidemiyalara, pandemiyalara səbəb olan ağır infeksion xəstəliklərin idarə olunmasına baxmayaraq, müasir

dövrümüzdə yeni infeksion problemlər də (məsələn, QİÇS, Laym xəstəliyi, legionelyoz, quş qripi, SARS, koronovirus və s.) baş qaldırmaqdadır. Nəticədə epidemioloji araşdırmalarsız bu problemlərin öhdəsindən gəlmək qeyri-mümkündür.

Həmçinin epidemioloji araşdırmalardan və metodologiyadan istifadə edən digər elm sahələrinin sayı da daima artmaqdadır.

Bildiyimiz kimi, doktorantura təhsilində tələbələr tədris olunan fənlərin praktik hissəsini əsaslı şəkildə öyrənməli və onu iş sahəsində peşəkar səviyyədə tətbiq etməyi bacarmalıdır. Təhsil səviyyəsinin məqsədi mütəxəssisləri müəyyən ixtisas sahəsi üzrə master-işinin ustası şəkilində yetişdirməkdir.

Ona görə də, müasir dövrdə hər bir tibb işçisinin epidemioloji biliklərə malik olması, onların yayılması yollarını bilməsi, əksepidemik tədbirlərə riayət etmələri, xəstəliklərin profilaktikası üzrə tədbirləri aparması və s. haqqında məlumatlanması müasir dövrün tələblərindəndir. Bu baxımdan hazırlanmış dərs proqramı deyilənləri özündə ehtifa edərək, «Doktorantura» səviyyəsi üzrə «»Epidemiologiya» fənnninin öyrənilməsini nəzərdə tutmuşdur. Proqram dünya təcrübəsində epidemiologiya sahəsində tədris olunan nümunələrin əsasında hazırlanmış və həm nəzəri, həm də təcrübi məsələləri özündə əks etdirir.

Fənnin tədrisi nəticəsində tələbələrə infeksion /parazitar/ və qeyri-infeksion xəstəliklərin baş verməsi və yayılmasının səbəb və şərtlərini aşkar etməyi, habelə bu xəstəliklərin azaldılması və ləğv edilməsinə yönəldilmiş tədbirləri əsaslandırmağı, təşkil etməyi və həyata keçirməyi; epidemik prosesin qanunauyğunluqlarını bilməklə xəstəliklərlə mübarizə və profilaktika tədbirlərinin aparılması üzrə bilik və bacarıqlar aşılanır. Həmçinin müxtəlif yoluxucu infeksiyalar zamanı ocaqda aparılan əksepidemik tədbirlərin həyata keçirilməsi, epidemioloji müayinənin və təhlilin aparılması, xəstələnmənin proqnozlaşdırılması üsulları öyrədilir. Bundan başqa, qeyri-infeksion xəstəliklərin müxtəlif nozoloji formaları və qrupları üzərində epidemioloji nəzarətin təşkili və profilaktikası yolları öyrədilir. Həmçinin dezinfeksiya işinin təşkili, üsulları və müxtəlif infeksiyalar zamanı onun tətbiqi istiqamətləri tədris edilir. Əhalinin xəstələnməsinin qarşısının alınması üçün

immunprofilaktika vasitələrinin əhəmiyyəti, işlədilməsi üsulları, tətbiqi texnikası, vaksinasiyanın effektivliyinin qiymətləndirilməsi və s. öyrədilir.

**Fənnin təlim nəticəsi**

1. ərazinin sanitar- epidemioloji vəziyyətini qiymətləndirməyi və buna müvafiq olaraq stasionar və ambulatoriya şəraitində əksepidemik tədbirlərin təşkilini;
2. yoluxucu xəstəlik ocağının epidemioloji müayinəsini aparmağı, onun sərhədlərini, epidemioloji müşahidəyə, izolyasiyaya, məhdudlaşdırıcı tədbirlərə, laborator və klinik müayinələrə məruz qalan şəxsləri təyin etməyi;
3. infeksiya mənbəyini, törədicinin yoluxma amillərini təyin etməyi və onları zərərsizləşdirməyi;
4. müxtəlif nozoformalar zamanı hospitalizasiya müddətini və rejim-məhdudlaşdırıcı tədbirlərin davametmə müddətini, xəstəliyi keçirən və yoluxma riskinə məruz qalan şəxslər üzərində dispanser müşahidənin aparılması qaydasını;
5. müxtəlif infeksiyalar zamanı obyektlərin cari və yekun dezinfeksiyasının, dezinseksiyasının və deratizasiyasının aparılması qaydasını;
6. müxtəlif infeksion və Qeyri-infeksion xəstəliklər üzrə epidemioloji vəziyyətin qiymətləndirilməsi üçün epidemioloji təhlili aparmağı;
7. xəstəliklərin biostatistik göstəricilərini hesablamağı, xəstəliklərə dair epidemioloji göstəricilər əsasında cədvəllərin, qrafiklərin qurulmasını
8. epidemioloji anamnez toplamağı, ocağın tədqiqini, protokol və aktların yazılmasını bacarır.

## FƏSİL 1. EPİDEMİOLOGİYAYA GİRİŞ

Epidemiologiya elm kimi, tərifi, predmeti və vəzifələri. İnkişaf tarixi, digər elmlərlə əlaqəsi. Epidemiologiyanın əsas bölmələrinin məzmunu və müayinə metodları.

## FƏSIL 2. ÜMUMİ EPİDEMİOLOGİYA

**2.1. Epidemik proses haqqında təlim.** Yoluxma mexanizmi nəzəriyyəsi və epidemik prosesin inkişafı. İnsanın yoluxucu xəstəliklərinin təsnifatı və onların törədicilərinin təkamülü. İnfeksion proses və parazitizm. İnfeksion prosesdə mikroorqanizmin və makroorqanizmin rolu. Epidemik proses haqqında təlim.

Epidemik prosesin tərkib hissələri. Epidemik prosesin kateqoriya və qanunları. Epidemik prosesin hərəkətverici qüvvələri. Epidemik prosesin təzahürləri. Epidemiyaların tipləri, onların xarakteristikası. Epidemik ocaq, xarakteristikası. Ocaqda aparılan əksepidemik tədbirlər, onların təşkili. Yoluxucu xəstəlik ocağının epidemioloji müayinə metodikası. Yoluxucu xəstəliklərin qeydiyyatı və uçotu. Epidemik prosesin təkamülü. L.V.Qromaşevskinin yoluxma mexanizmi təlımı. Törədicilərin yoluxma amilləri haqqında anlayış. Amillər üçlüyünün qarşılıqlı əlaqəsi. V.D Belyakovun epidemik prosesin özünütənzimləmə nəzəriyyəsi. Y.N.Pavlovskinin yoluxucu xəstəliklərin təbii-ocaqlılığı haqqında təlimi. Yoluxucu xəstəliklərin canlı keçiriciləri və onların epidemioloji əhəmiyyəti. Canlı keçiricilərin müxtəlif nümayəndələrinin xarakteristikası.

**2.2 Dezinfeksiya işi.** Dezinfeksiya, növləri, üsulları. Sterilizasiya. Dezinseksiya. növləri, üsulları. İnsektisidlərin qısa xarakteristikası. Heyvanlar, onların epidemiloji əhəmiyyəti. Deratizasiya, növləri, üsulları. Kamera dezinfeksiyası. Kiçik dezinfeksiyaedici aparatlar.

**2.3.Yoluxucu xəstəliklərin immunprofilaktikası.** Spesifik immunprofilaktika, qeyri-spesifik immunprofilaktika, Aktiv immunlaşdırma, Passiv immunlaşdırma İmmunitet və növləri. TİBP və onların qısa xarakteristikası. Genişləndirilmiş İmmunlaşdırma Proqramı. “Soyuq zəncir” sistemi.

**2.4. Qeyri-infeksion xəstəliklərin epidemiologiyası**: anlayış, predmet, məqsəd və vəzifələri, metodları. QIXE - tədqiqatının metodiki prinsipləri, inkişaf tarixi, qisa səciyyəsi. Qeyri-infeksion xəstəliklərin epidemiologiyasının ümumi məsələləri.

**2.5. Əsas epidemioloji anlayışlar.** Ümumi tibb elmi və epidemik proses haqqında elm kimi epidemiologiyanın predmeti. Epidemioloji metodun mahiyyəti. Yoluxucu xəstəliklərin spesifik profilaktikası.

**2.6. Qeyri-infeksion xəstəliklərin epidemiologiyası:** anlayiş, metodlar. Onkoloji xəstəliklərin epidemiologiyası -tərifi, təsnifat, tarixi. Xəstələnmənin təzahürlərinin xarakteristikası. Onkoloji xəstəliklərin risk amilləri. Epidemioloji nəzarət. Profilaktik tədbirlər. Ürək-damar xəstəliklərinin epidemiologiyası. Ekoloji şərtlənmiş xəstəliklərin epidemiologiyası - anlayış. Ekoloji şərtlənmiş

xəstəliklərin strukturu, qrupları. Təbii və texnogen mənşəli bəzi ekoloji şərtlənmiş xəstəliklər. Genetik şərtlənmiş xəstəliklərin epidemioloji xarakteristikası.

## FƏSİL 3. Xüsusi epidemiologiya

Hava-damcı yoluxma mexanizminə malik infeksiyaların epidemiologiyası. Fekal-oral yoluxma mexanizminə malik antroponoz infeksiyaların epidemiologiyası. Fekal-oral yoluxma mexanizminə malik zoonoz infeksiyaların epidemiologiyası. Transmissiv və təmas yoluxma mexanizminə malik infeksiyaların epidemiologiyası. Viruslu hepatitlərin epidemiologiyası. Xəstəxanadaxili infeksiyaların epidemiologiyası. Sapronozların ümumi xarakteristikası, təsnifatı.

**3.1. Tənəffüs yolları infeksiyalarının ümumi xarakteristikası.** Difteriyanın epidemiologiya və profilaktikası. Qızılca və məxmərəyin epidemiologiya və profilaktikası. Göyöskürək, qrip və digər kəskin respirator infeksiyaların epidemiologiya və profilaktikası. Epidemik parotit, skarlatina, su çiçəyinin epidemiologiya və profilaktikası. Koronavirus infeksiyası. Atipik pnevmoniya (SARS).

**3.2.Bağırsaq qrupu infeksiyalarının ümumi xarakteristikası.** Qarın yatalağının, paratiflərin epidemiologiya və profilaktikası. Şigelyozların, eşerixiozların epidemiologiya və profilaktikası. Vəbanın epidemiologiya və profilaktikası. Virus mənşəli yoluxucu bağırsaq xəstəlikləri. Enteroviruslar tərəfindən törədilən xəstəliklər. Poliomielitin epidemiologiya və profilaktikası. Rotaviruslu mədə-bağırsaq xəstəliyi. Norvolk virus qrupu xəstəliyi. Viruslu hepatitlər. Fekal-oral mexanizmə malik (A və E hepatiti) viruslu hepatitlərin epidemiologiya və profilaktikası.

**3.3.Qan infeksiyalarının ümumi xarakteristikası** Parenteral mexanizmə malik (B, C, və s.) viruslu hepatitlərin epidemiologiya və profilaktikası. İİV-infeksiyanın epidemiologiya və profilaktikası. Mikoplazmozun epidemiologiya və profilaktikası. Qoturluq.

**3.4. Transmissiv yoluxma mexanizminə malik infeksiyaların epidemiologiya və profilaktikası (səpgili yatalaq, Brill xəstəliyinin timsalında).**

**3.5. Zoonoz infeksiyalar.** Fekal-oral yoluxma mexanizminə malik zoonoz infeksiyaların ümumi xarakteristikası. Bruselyozun epidemiologiya və profilaktikası. Salmonelyozların epidemiologiya və profilaktikası. Qida toksikoinfeksiyaları. Leptospirozun epidemiologiya və profilaktikası. Təmas yoluxma mexanizminə malik zoonoz infeksiyaların ümumi xarakteristikası. Quduzluq, onun epidemiologiya və profilaktikası. Qara yaranın epidemiologiya və profilaktikası. Transmissiv yoluxma mexanizminə malik zoonoz infeksiyaların ümumi xarakteristikası. Taun, tulyaremiyanın epidemiologiya və profilaktikası. Hospital infeksiyaların epidemiologiya və profilaktikası.

**3.6. Sapronoz xəstəliklərin epidemiologiyası.** Legionelyoz, psevdovərəm və yersinioz. Tetanus. Botulizm.

**3.7. Karantin xəstəliklərinin ölkə ərazisinə gətirilməsinin və yayılmasının qarşısının alınması üzrə ərazinin sanitariya mühafizəsi tədbirləri.** Vəba, taun, sarı qızdırma, malyariya və viruslu hemorragik kontagioz qızdırmalar zamanı aparılan karantin tədbirləri. Sarı qızdırma, viruslu hemorragik kontagioz qızdırmaların (Marburq, Ebola, Lass) epidemiologiyası. Arbovirus infeksiyaları. Yapon ensefaliti. Gənə ensefaliti.

**3.8.Tibbi parazitologiya**

Parazitologiya elm kimi, predmeti və vəzifələri. Parazitar xəstəliklərin ümumi xarakteritikası, təsnifatı. Amöbiaz və onun epidemiologiyası. Lyamblioz, leyşmaniozlar və onların epidemiologiyası. Malyariya, toksoplazmoz və onların epidemiologiyası. Helmintozların ümumi xarakteristikası, təsnifatı. Geohelmintozlar: askaridoz, trixosefalyoz, ankilostomidozlar və onların epidemiologiyası. Biohelmintozlar: teniidozlar, difillobotrioz, exinokokkozlar, trixinelyoz və onların epidemiologiyası. Təmas helmintozları- enterobioz, himenolepidoz və onların epidemiologiyası.

Parazitizm haqqında anlayış və parazitar xəstəliklərin ümumi xarakteritikası. Malyariya üzərində epidemioloji nəzarətin təşkili, laborator diaqnostikası. Qan və

toxuma protozoozları (toksoplazmoz, leyşmaniozlar) üzərində epidemioloji nəzarətin təşkili, laborator diaqnostikası. Bağırsaq protozoozları (amöbiaz, lyamblioz, balantidiaz), onlar üzərində epidemioloji nəzarətin təşkili və laborator diaqnostikası. Geohelmintozlar (askaridoz, trixosefalyoz, ankilostomidozlar) üzərində epidemioloji nəzarətin təşkili və laborator diaqnostikası. Biohelmintozlar (teniidozlar, difillobotrioz), onlar üzərində epidemioloji nəzarətin təşkili və laborator diaqnostikası. Exinokokkozlar, trixinelyoz üzərində epidemioloji nəzarətin təşkili və laborator diaqnostikası. Təmas helmintozları üzərində epidemioloji nəzarətin təşkili və laborator diaqnostikası.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

### Əsas ədəbiyyat

1. İ.Ə.Ağayev, X.N.Xələfli, F.Ş.Tağıyeva. Epidemiologiya (Milli rəhbərlik). Dərslik, Bakı, Təbib nəşriyyatı 2022, 720s.
2. İ.Ə.Ağayev, X.N.Xələfli, F.Ş.Tağıyeva. Epidemiologiya. Dərslik, Bakı, 2012, 728s
3. İ.Ə.Ağayev başq. Dezinfeksiya işi. Dərs vəsaiti. Bakı, 2008, 208 s.

4. Genişləndirilmiş İmmunlaşdırma Proqramı. Tibb işçiləri üçün vəsait. Az.Res.SN-İNİSEF, 2002.

5. Беляков В.Д., Яфаев Р.Х. Эпидемиология: М., Москва, 1989, 414с.

6. Брико Н.И. Эпидемиология: Учебник: в 2 т. Том II. М.: ООО Издательство «Медицинское информационное агенство», 2013, 656 с.

7. Покровский В.И., Пак С.Г., Брико Н.И. Инфекционные болезни и эпидемиология: М., Москва, 2006, 810с.

**Əlavə ədəbiyyat**

1. Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология: Санкт-Петербург, Фолиант, 2006, 716с.
2. Шкарин В.В., В.А.Рылникова. Медицинская дезинфекция, дератизация, дезинсекция / Нижний Новгород, Нижгма. 2016.

**İnternet mənbələri**

1. https://www.kitabyurdu.org/kitab/derslik/438-epidemiologiya.html
2. https://amu.edu.az/page/3017/epidemiologiya-kafedrasinda-tedris-prosesinde istifade-olunan-edebiyyat
3. http://sovschool.com/web/index.php?r=site%2Flesson&id=2&book=132
4. https://library.sammi.uz/Library/Rus%20tilidagi%20adabiyotlar/%D0%98%D0%BD%D1%84%D0%B5%D0%BA%D1%86%D0%B8%D0%BE%D0%BD%D0%BD%D1%8B%D0%B5%20%D0%B1%D0%BE%D0%BB%D0%B5%D0%B7%D0%BD%D0%B8/%D0%AD%D0%BF%D0%B8%D0%B4%D0%B5%D0%BC%D0%B8%D0%BE%D0%BB%D0%BE%D0%B3%D0%B8%D1%8F%2C%20%D0%9D.%20%D0%98.%20%D0%91%D1%80%D0%B8%D0%BA%D0%BE%2C%20%202015.pdf
5. https://www.studentlibrary.ru/ru/doc/ISBN9785970416525-A000/000.html
6. https://booksmed.com/epidemiologiya/184-yepidemiologiya-zueva-yafaev-uchebnik.html

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Metodik göstərişlər**

**Doktorantların** 3202.01 "Epidemiologiya" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Epidemiologiya" fənni üzrə mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadankənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan zamanı komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant yuxarıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5 (“əla”), 4 (“yaxşı”), 3 (“kafi”) və ya 2 (“qeyri-kafi”)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| **1** | **2** |
| **5 (əla)** | Doktorant epidemiologiya fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant epidemiologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat mlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **4 (yaxşı)** | Doktorant epidemiologiya fənnini dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant epidemiologiya ixtisası üzrə yerli və xarici tədqiqatçıların işləri haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilir. |
| **3 (kafi)** | Doktorant epidemiologiya fənnini qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant epidemiologiya ixtisası üzrə yerli və xarici tədqqiatmıların məlumatları, haqqında ümumi biliklərə malik olduğunu, həmçinin |

| | |
|---|---|
| | dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatların ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirməkdə çətinlik çəkir. |
| **2 (qeyri-kafi)** | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və epidemiologiya fənnini mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant epidemiologiya ixtisası üzrə yerli və xarici məlumatlar haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant nəzəriyyəni, elmi tədqiqatları ədəbiyyat məlumatları əsasında təhlilini qiymətləndirə bilmir. |

## Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

1. Əhali arasında yoluxucu xəstəliklərin baş verməsi və yayılmasının ümumi qanunauyğunluqları.
2. Ayrı-ayrı yoluxucu xəstəliklərdə epidemik prosesin səbəb və şərtləri,inkişaf mexanizmi və təzahürləri.
3. Epidemik prosesin baş verməsində təbii və sosial amillərin tənzimedici rolu.
4. Epidemik proses haqqında təlim, bölmələri: epidemik prosesin daxili strukturu, inkişaf mexanizmi, təzahürləri. Epidemik prosesin hərəkətverici qüvvələri.

5. Epidemik ocaq anlayışı, xarakteristikası. Profilaktik və əksepidemik tədbirlərin sistem və məzmunu.
6. Yoluxucu xəstəliklərin profilaktikası məqsədilə işlədilən preparatlar,texniki vasitələr və onların işlədilməsi qaydaları.
7. Eksepidemik sistemin təşkilati quruluşu,onun məlumat təminatının və idarə edilməsinin, əksepidemik işin təşkilinin və planlaşdırılmasının metodik əsasları. Profilaktik və əksepidemik tədbirlərin keyfiyyət və effektivliyinin qiymətləndirilməsinin metodik əsasları.
8. Epidemiologiyanın metodları.
9. Müxtəlif infeksiyalar zamanı əksepidemik tədbirlər sistemində dezinfeksiyanın, sterilizasiyanın yeri və əhəmiyyəti. Dezinfeksiyanın növləri və əhəmiyyəti. Əsas dezinfeksiyaedici maddələr və onların xüsusiyyətləri. Dezinfeksiyaedici maddələrin insanlara, heyvanlara toksiki və işlənilən obyektlərə zədələyici təsiri.
10. Cari, yekunlaşdırıcı və profilaktik dezinfeksiyanın təşkili və aparılması. Kamera dezinfeksiyasının növləri. Dezinfeksiyanın keyfiyyəttinə nəzarət.
11. Dezinseksiyanın növləri və üsulları. Əsas desinfeksiyada işlədilən maddələr və onların xüsusiyyətləri.
12. Deratizasiya, növləri və üsulları. Zoonoz infeksiyalarla mübarizədə əksepidemik tədbirlər sistemində deratizasiyanın yeri və əhəmiyyəti. Deratizasiya tədbirlərinin (profilaktik və qırıcı) həyata keçirilməsində tibb, baytarlıq, kommunal xidmətinin fəaliyyəti. Gəmiricilərin qırılma üsulları.
13. İmmunoprofilaktikanın elmi əsasları. Müxtəlif qrup infeksiyalar zamanı profilaktik,əksepidemik tədbirlərin immunoprofilaktikada yeri və rolu. İmmunoprofilaktikanın üsulları ilə idarə olunan yoluxucu xəstəliklər.
14. Bioloji preparatların növü və onların müqayisəli xarakteristikası (vaksinlər, zərdablar, immunoqlobulinlər, bakteriofaqlar, interferonlar). Profilaktik peyvəndlər kabinetinin avadanlığı və təhcizatı. Əhalinin immunlaşdırılmasının aparılmasına yanaşma və peyvənd təqvimi.
15. Peyvəndlərin aparılmasına göstəriş və əksgöstəriş. Peyvənd olunası əhalinin seçilməsi və qeydiyyatı, peyvənd kartalarının quruluşu və doldurulması.
16. Aktiv immunlaşdırma, mahiyyəti, istifadə olunan preparatlar.
17. Passiv immunlaşdırma, mahiyyəti, istifadə olunan preparatlar. Epidemik göstərişlərə əsasən yoluxucu xəstəliklərin spesifik profilaktikasının prinsipləri (quduzluq, gənə ensefaliti,tetanus).
18. Xəstə insan və törədicigəzdirənlər – infeksiya mənbəyi kimi. Antroponozlarda törədicinin ətraf mühitə ifraz olunmasının müxtəlif yolları. Sosial, təbii və bioloji amillərin antroponozlara təsiri. Virusların və bakteriyaların insan orqanizmində persistensiyası.
19. Aerozol yoluxma mexanizmi ilə birləşmiş antroponozlar qrupu infeksiyalarının ümumi epidemioloji xüsusiyyətləri.
20. Fekal-oral yoluxma mexanizmi ilə birləşmiş antroponozlar qrupu infeksiyalarının ümumi epidemioloji xüsusiyyətləri.
21. Transmissiv yoluxma mexanizmi ilə birləşmiş antroponozlar qrupu infeksiyalarının ümumi epidemioloji xüsusiyyətləri.
22. Təmas yoluxma mexanizmi ilə birləşmiş antroponozlar qrupu infeksiyalarının ümumi epidemioloji xüsusiyyətləri.
23. Vertikal yoluxma mexanizmi ilə birləşmiş antroponozlar qrupu infeksiyalarının ümumi epidemioloji xüsusiyyətləri.
24. Vəhşi sinantrop heyvanlar və quşlar infeksiya mənbəyi kimi. Zoonozların epidemioloji əhəmiyyəti. Sosial, təbii və bioloji əmillərin zoonozlara təsiri. Təbii-ocaqlılıq nəzəriyyəsinin mahiyyəti. Yoluxma mexanizminin zoonozlara təsiri. Zoonoz infeksiyalar qrupunun ümumi epidemioloji xüsusiyyətləri. Zoonozlarda epizootik prosesin xarakteristikası. Ayrı-ayrı zoonoz xəstəliklərin (taun, tulyaremiya, qara yara, bruselyoz, quduzluq və s.) epidemiologiyası.

25. Sapronozların ətraf mühit infeksiya mənbəyi kimi. Sapronozların ümumi epidemioloji xüsusiyyətləri. Müxtəlif nozoformaların epidemioloji xarakteristikası. Sosial, təbii və bioloji amillərin sapronozlara təsiri. Həqiqi və qeyri-həqiqi sapronozların epidemiologiyası.
26. Parazitar xəstəliklərin ümumi epidemioloji xüsusiyyətləri. Parazitar xəstəliklərin etioloji strukturu. Patogen ibtidailər tərəfindən törədilən xəstəliklər və onların epidemioloji xarakteristikası (malyariya, toksoplazmoz, amöbiaz, lyamblioz, leyşmaniozlar və s.) . Ölkə patologiyasında mühüm rol oynayan parazitar xəstəliklər və onların ləğvi perspektivləri.
27. Helmintozlar, onların təsnifatı. Müxtəlif qrup (geohelmintozlar, biohelmintozlar, təmas) helmintozların epidemiologiyası. Müxtəlif qrup helmintozlarla mübarizə və profilaktikanın xüsusiyyətləri. Əhalinin parazitar xəstəliklərlə xəstələnməsinin çoxillik və illik dinamikası. Parazitar xəstəliklərin laborator diaqnostika metodları
28. Əhalinin əksepidemik təminatı üzrə əsas qanunvericilik, təlimati-normativ və hüquqi sənədlər.
29. Xəstəliklər üzərində sanitar-epidemioloji nəzarətin əsasları. Yoluxucu və qeyri-yoluxucu xəstəliklərin profilaktikasının əsasları. Əksepidemik xidmətin strukturu, əksepidemik xidmət sisteminin müxtəlif bölmələrinin funksiyaları. Yoluxucu xəstəliklərin müxtəlif nozoloji formaları və qrupları üzərində epidemioloji nəzarətin metodik və təşkilatı əsasları.
30. Epidemioloji nəzarətin metodiki əsasları: retrospektiv və operativ epidemioloji nəzarət. Epidemioloji təhlil, mahiyyəti, növləri. Operativ və retrospektiv təhlilin məqsəd və vəzifələri.
31. Xəstələnmənin çoxillik dinamikasının təhlili. Xəstələnmənin aylıq dinamikasının təhlili. Epidemioloji əlamətlərə (risk amillərinə, qruplara) görə xəstələnmənin təhlili. Operativ epidemioloji təhlil. Tək-tək və çoxsaylı xəstələnmə ocaqlarnın epidemioloji müaynəsi.